**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ**

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN
İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN
PARLAMENTLƏRARASI ASSAMBLEYASI**

**MDB PAA İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRDƏ
DEMOKRATİYANIN, PARLAMENTARİZMİN İNKİŞAFININ
VƏ VƏTƏNDAŞLARIN SEÇKİ HÜQUQLARINA RİAYƏT
OLUNMASININ MONİTORİNQİ BEYNƏLXALQ İNSTİTUTUNUN**

**BAKI FİLİALI**

# Azərbaycan Respublikasında demokratik seçki təcrübəsi:

# parlament ölçüsü

(sənədlər toplusu)

*M.İ.Krotovun, S.A.Mirzəyevin
redaktorluğu ilə*

**Sankt-Peterburq – Bakı
Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin
Parlamentlərarası Assambleyası Şurasının Katibliyi**

**2011**

UDK 324
BBK 66
O-62

O-62 **Azərbaycan Respublikasında demokratik seçki təcrübəsi: parlament ölçmələri** (sənədlər toplusu) / M.İ.Krotovun, S.A.Mirzəyevin redaktorluğu ilə. – SPb.; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. 2011. – 000 s.
İSBN 978-5-86857-036-0

MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının nümayəndələri 1994-cü ildən müntəzəm olaraq Birlik dövlətlərində seçki proseslərinin monitorinqində iştirak edirlər. Demokratiya və parlamentarizmin inkişafı təcrübəsinin ümumiləşdirilməsi, həmçinin beynəlxalq müşahidəçilərin təlimi məqsədi ilə MDB PAA İştirakçısı Olan Dövlətlərdə Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutu təsis edilmiş və daha sonra Azərbaycan Respublikasının paytaxtında institutun MDB-də ilk filialı olan Bakı filialı açılmışdır.

Bu nəşrdə 2005–2010-cu illər ərzində Azərbaycan Respublikasında seçki proseslərinin monitorinqi üzrə MDB PAA-dan olan müşahidəçilərin hesabat və rəyləri, həmçinin Azərbaycanın Parlamentlərarası Assambleyanın işini tənzimləyən beynəlxalq sazişlərə qoşulması haqqında sənədlər dərc olunur.

Kitab parlamentarilər, ictimaiyyətşünaslar, sosioloqlar, politoloqlar və MDB iştirakçısı olan dövlətlərdə demokratiyanın təşəkkülü və seçki qanunvericiliyinin təkmilləşdirilməsi məsələləri ilə maraqlanan hər kəs üçün nəzərdə tutulmuşdur.

İSBN 978-5-86857-036-0

© Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi, 2011

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri**
**O.S. Əsədov**

Seçki sistemi, seçki və referendumların (ümumxalq səsvermələrinin) keçirilməsi istənilən cəmiyyətin siyasi sisteminin fundamental institutları hesab edilir. Öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası 1 milyondan çox qaçqın və məcburi köçkününün olması ilə bağlı çoxsaylı çətinliklərə baxmayaraq, bir gün də olsun demokratik prosesləri dayandırmamış və azad, ədalətli, şəffaf seçkilərin təmin olunmasına can atmışdır.

Təməli Azərbaycan xalqının ümummilli lideri H. Ə. Əliyev tərəfindən qoyulan və Prezident İ. H. Əliyev tərəfindən uğurla davam etdirilən ənənəyə uyğun olaraq Milli Məclis – Azərbaycan Respublikasının parlamenti ölkədə demokratik standartların təsdiq olunmasında vacib rol oynayır.

Milli Məclisdə geniş spektrdə siyasi partiyalar və müstəqil namizədlər təmsil olunurlar ki, bu da milli qanunvericiliyin hazırlanması və qəbulu zamanı bütün vətəndaşların rəyinin nəzərə alınmasını təmin edir. Ölkədə seçki və referendumların demokratikliyini təmin edən hüquq normalarının inkişafında parlamentin rolunu xüsusi vurğulamaq lazımdır. Qanun yaradıcılığının təkmilləşdirilməsi üzrə iş daim aparılır və bu anda, demək olar ki, bizim seçki qanunvericiliyi qəbul edilmiş beynəlxalq standartlara və Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara (ATƏT, Avropa Şurası, MDB və s.) tamhüquqlu üzvlüyü zamanı üzərinə götürdüyü öhdəliklərə uyğundur.

Hələ 2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi Müstəqil Dövlətlər Birliyi çərçivəsində üzv dövlətlərdə demokratiya proseslərinin monitorinqini, həmçinin seçki prosedurlarının – seçki və referendumların müşahidəsini həyata keçirəcək xüsusi institutun yaradılması təşəbbüsü ilə çıxış etmişdi. MDB PAA İştirakçısı Olan Dövlətlərdə Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun (DİMBİ) yaradılmasından az sonra Milli Məclis MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası ilə birlikdə Bakıda bu institutun ilk filialının açılması barədə qərar qəbul etdi.

Hazırda DİMBİ və onun Bakı filialı demokratiya standartlarının milli qanunvericiliyə tətbiqinə yardım edən, həmçinin institut ekspertləri tərəfindən işlənib hazırlanan metodikalara uyğun olaraq seçki kampaniyalarının uzunmüddətli monitorinqini təmin edən nüfuzlu beynəlxalq strukturlara çevrilmişlər. İnstitutun və onun filialının əməkdaşları 2005–2010-cu illərdə Azərbaycanda keçirilmiş seçkilərin və referendumların monitorinqinin aparılmasına böyük kömək göstərmişlər. Azərbaycan ekspertləri Birliyin digər dövlətlərində də seçkilərin monitorinqində müntəzəm iştirak edirlər.

Oxucuların diqqətinə təqdim edilən sənədlər DİMBİ-nin və onun Bakı filialının seçkilərin təşkili və keçirilməsinin təhlilinə elmi cəhətdən əsaslandırılmış kompleks yanaşmasına sübutdur. Materiallar toplusu seçkilərin keçirilməsi dövründə ölkədə siyasi həyatın təşkilinin tam təsvirini verir, seçki prosedurlarının şəffaf xarakterini, həmçinin o faktı təsdiq edir ki, seçkilərin yekunu Azərbaycan xalqının iradəsini əks etdirir.

## Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Sədri, Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Sədri

**S.M.Mironov**

MDB PAA İştirakçısı Olan Dövlətlərdə Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun (DİMBİ) yaradılması haqqında MDB Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərin parlament rəhbərlərinin 2006-cı il fevral ayının 10-da Kiyevdə qəbul olunmuş qərarı demokratik seçki, seçki hüquq və azadlıqları standartlarının, müntəzəm keçirilən seçki və referendumların gedişində onların həyata keçirilməsi zəmanətinin möhkəmləndirilməsinə bu dövlətlərin zəruri ehtiyacını əks etdirmişdir.

DİMBİ və onun hazırda Azərbaycan Respublikasını, Qırğızıstan Respublikasını və Ukraynanı əhatə edən filiallar şəbəkəsi seçki proseslərinin müasir normativ infrastrukturunun inkişafında, seçkilərin şəffaflığında, seçki orqanlarının müstəqilliyində, düzgün siyasi rəqabətdə əhəmiyyətli köməklik göstərir. Bu sferada fəaliyyətin uzunmüddətli məqsədləri stabil demokratik inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin seçkilərin beynəlxalq müşahidəsində ikili standartlardan istifadə praktikasına yol verilməməsidir.

Azərbaycan Respublikasının Milli Məclisi və onun Sədri O.S.Əsədov seçkilərin monitorinqi sahəsində parlamentlərarası əməkdaşlığı ən fəal şəkildə dəstəkləyirlər. MDB Parlamentlərarası Assambleyası çərçivəsində Azərbaycan parlamentinin deputatları, həmçinin DİMBİ-nin Bakı filialının ekspertləri seçki proseslərinin monitorinqinin metodologiya və metodikasının inkişafı, seçkilərin və referendumların keçirilməsi üzrə milli qanunvericiliyin təkmilləşdirilməsinə yönəldilmiş tövsiyələrin işlənib hazırlanması, həmçinin təcrübədə yeni hüquqi normaların həyata keçirilməsi sahəsində məqsədyönlü iş aparırlar.

Biz seçki prosedurlarını nizamlayan qanunvericiliyin standartlaşdırılması xəttini tutaraq həmçinin hesab edirik ki, istənilən standartlar konkret dövlətlərin milli

xüsusiyyətləri və ənənələri nəzərə alınmaqla işlənib hazırlanmalıdır. MDB PAA iştirakçısı olan dövlətlərin prinsipial mövqeyi ondan ibarətdir ki, seçkilərin beynəlxalq müşahidəsi çox vaxt seçki iştirakçılarının maraqlarına zidd olan siyasi texnologiyaların eksportuna deyil, seçki prosesinin nüfuzunun artırılması üzrə tövsiyələrin işlənib hazırlanmasına yönəldilməlidir.

Oxucuların diqqətinə təklif olunan sənədlər toplusu 2005-ci ildən 2010-cu ilədək olan dövrdə Azərbaycan Respublikasında keçirilən seçkilərin və referendumların monitorinqinə həsr olunmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin və MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının sıx qarşılıqlı fəaliyyəti MDB PAA-dan olan müşahidəçilərə bu ölkədə keçirilən seçki və referendumlarda ekspertlərin gücü ilə aparılan uzunmüddətli monitorinqlərin və seçkilərin parlamentarilər tərəfindən həyata keçirilən qısamüddətli müşahidəsinin tam potensialını açmağa imkan vermişdir. Məsələn, seçkilərin keçirilməsi haqqında qərar qəbul olunmasından onların nəticələrinin rəsmi elan olunmasınadək seçkiqabağı kampaniyanın bütün mərhələlərini müşahidə etmək üçün yerli ekspertlərin geniş cəlb edilməsi praktikası ilk dəfə məhz Azərbaycan Respublikasında tətbiq olunmuşdur. Azərbaycanın seçkilərdə iştirak edən siyasi qüvvələrinin nümayəndələri ilə sıx qarşılıqlı fəaliyyət, mətbu və elektron KİV-lərin monitorinqi, təşviqat kampaniyasının gedişinin və onun keçirilməsində pozuntuların təhlili – uzunmüddətli monitorinqin keçirilməsi zamanı məhz bu məsələlər DİMBİ-nin diqqət mərkəzində olur.

Bu topluda nəşr olunan sənədlər Azərbaycan Respublikasının demokratik dövlətə məxsus bütün institut və prosedurlara və müasir seçki qanunvericiliyinə malik olan dövlət qurmaq yolunda inam və əzmlə irəlilədiyini əks etdirir.

# Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında Sazişə Azərbaycan Respublikası Milli Məclisinin qoşulması barədə

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Milli Məclisi Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında Sazişə qoşulsun.

2. Azərbaycan Respublikası Milli Məclisinin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında Sazişə qoşulması barədə bildiriş Parlamentlərarası Assambleyanın Katibliyinə (Sankt-Peterburq şəhəri) göndərilsin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Heydər Əliyev**

Bakı şəhəri, 20 sentyabr 1993-cü il.
№ 710

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında Konvensiyanın təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında 1995-ci il mayın 26-da Moskva şəhərində imzalanmış Konvensiya 9-cu maddəsinin 2-ci hissəsi və 12-ci maddəsi istisna olmaqla təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər Əliyev**

Bakı şəhəri, 16 aprel 1996-cı il.
№ 62-IQ

**MDB PAA-nın İştirakçısı Olan Dövlətlərdə Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutunun Bakı filialının yaradılması haqqında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında**

**SAZİŞ**

MDB PAA Şurasının Sədri Sergey Mixayloviç Mironovun və Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Sabir oğlu Əsədovun simasında bundan sonra Tərəflər adlandırılacaq Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası (bundan sonra MDB PAA) və Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının qanunvericiliyini, MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında Konvensiyanı, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının (bundan sonra MDB PAA Şurası) 2005-ci il 17 noyabr tarixli 28 №-li Qərarını, həmçinin MDB PAA Şurasının 2006-cı il 10 fevral tarixli 5 №-li qərarı ilə təsdiq edilmiş Demokratiyanın, Parlamentarizmin İnkişafının və Vətəndaşların Seçki Hüquqlarına Riayət Olunmasının Monitorinqi Beynəlxalq İnstitutu (bundan sonra MDB PAA DİMBİ) haqqında Əsasnaməni rəhbər tutaraq;

informasiya mübadiləsi proseslərinin daha dərin və səmərəli inkişafı üçün şərait yaradılmasına, demokratiya və parlamentarizmin inkişafı üzrə qabaqcıl təcrübənin ümumiləşdirilməsinə, həmçinin vətəndaşların seçki hüquqlarına riayət olunmasına çalışaraq,

aşağıdakılar barədə bu Sazişi bağladılar:

## Sazişin məqsədi

Bu Sazişin məqsədi MDB PAA DİMBİ-nin məqsəd və vəzifələrinin Azərbaycan Respublikasında həyata keçirilməsi üçün MDB PAA DİMBİ-nin Bakı filialının yaradılmasıdır.

## İnstitutun filialının fəaliyyətinə rəhbərlik

MDB PAA DİMBİ-nin Bakı filialı MDB PAA DİMBİ-nin struktur bölməsidir və MDB PAA DİMBİ-nin Bakı filialının saxlanması üçün üzvlük haqqı payının məbləğinə müvafiq olaraq, Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi ilə razılaşdırılmaqla, MDB PAA Şurasının Baş katibi tərəfindən təsdiq edilmiş ştat cədvəli çərçivəsində kadrlarla komplektləşdirilir.

MDB PAA DİMBİ-nin Bakı filialının fəaliyyətinə MDB PAA DİMBİ-nin direktor müavini olan direktor rəhbərlik edir.

## Yekun müddəalar

Bu Saziş Tərəflər tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.

Tərəflərin qarşılıqlı razılığına əsasən, bu Sazişə onun ayrılmaz hissəsi olan müvafiq protokolla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Bu Sazişin tətbiq və təfsir edilməsində yaranan mübahisəli məsələlər Tərəflərin danışıqları və məsləhətləşmələri yolu ilə həll olunur.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır. Tərəflərdən hər biri ən geci 6 ay əvvəldən xəbərdarlıq məktubu göndərib niyyətini bildirməklə bu Sazişdən çıxa bilər.

Saziş rus və Azərbaycan dillərində iki nüsxədə tərtib edilmişdir. Hər iki mətn eyni qüvvəyə malikdir.

2007-ci il martın 27-də Bakı şəhərində bağlanmışdır.

MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası tərəfindən:

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Sədri

S.M. Mironov

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən:

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

O.S. Əsədov